# Bölgələrimizin inkişafında mədəni-maarif proqramlarının rolu...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

**Azərbaycan dövlətinin mədəni-maarif sahəsində geniş proqramları var ki, biz onların əhatəli şəkildə icrasını görürük. Respublikamızın paytaxtı ilə yanaşı bölgələrdə də mədəni-maarif müəssisələrinin fəaliyyətinə xüsusi diqqət yetirilir. Elə bir bölgə yoxdur ki, orada kitabxanalarla, klublarla, mədəniyyət evləri, özfəaliyyət dərnəkləri, xalq teatrları, eləcə də digər bu qəbildən olan sahələrlə bağlı işlər görülməsin.**

Elm müəssisələrinin, muzeylərin, yaradıcılıq evlərinin, kitabxanaların təmiri, maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı məsələlər dövlətin aidiyyəti proqramlarında əks olunub. Azərbaycanın bütün bölgələrində mədəni-maarif işinin yüksək səviyyədə təşkili üçün baza var.

### Azad ərazilərdə mədəni-maarif proqramları necə icra olunur?

Azərbaycan dövləti işğaldan azad etdiyi ərazilərdə həyatı yenidən canlandırır, odur ki, bu ərazilər geniş tikinti meydançasına çevirilib. Bu rayonlarda sosial-iqtisadi infrastrukturla yanaşı mədəniyyət infrastrukturları yenidən yaradılır. Qarabağ ərazisi, eləcə də ətraf rayonlar işğala qədərki dövrdə böyük mədəniyyət ocaqlarına malik idi, burada muzeylər, kitabxanalar, klublar, musiqi məktəbləri və başqa mədəni-maarif ocaqları vardı. Amma Ermənistanın təcavüzü nəticəsində bu obyektlərin hamısı dağıdıldı, muzeylər, kitabxanalar, arxivlər yağmalandı. Halbuki, Qarabağdakı zəngin irsin ermənilərə heç bir aidiyyatı yox idi, amma çox şeyi daşıyıb apardılar. İşğala qədər burada çoxlu festivallar, yarışmalar, şeir və musiqi, teatr bayramları keçirilərdi. Torpaqlarımız azad edildikdən sonra "Xarı bülbül" festivalı, "Vaqif Poeziya Günləri" kimi ənənəvi mədəniyyət tədbirləri yenidən bərpa edildi və hər il Şuşada keçirilir. Şuşanın bərpası prosesində mədəniyyət sahəsində də çox işlər görülür, görkəmli şairə, dövlət xadimi Xan qızı Xurşudbanu Natavanın, görkəmli sənətkarımız Bülbülün və dahi Üzeyir bəyin güllələnmiş abidələri bərpa edildi, Bülbülün ev muzeyi, Mehmandarovların evi yenidən bərpa olundu, Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialının açılışı baş tutdu. Açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri iştirak etdilər, muzeydə sərgilənən eksponatlar və sənət əsərləri ilə tanış oldular. Burada mədəniyyət paytaxtımız Şuşaya həsr olunmuş "Müqəddəs sənət beşiyimiz" adlı, Azərbaycan Milli Xalça Muzeyinin Ənənəvi texnologiya şöbəsində toxunmuş xalçanın qədim ənənələrə uyğun dəzgahdan kəsimi mərasimi də keçirildi.

Bundan başqa, Zəngilan rayonunun Ağalı kəndində də hələ məskunlaşdırılmadan əvvəl dövlət tərəfindən aidiyyəti sosial və mədəni infrastruktur yaradıldı. Cəbrayıl rayonunda da mədəniyyət sahəsində işlər görülür. Məlumatlara görə, rayonun Xudafərin qəsəbəsində məktəb, uşaq bağçası, inzibati bina, məscid, bazar, çoxfunksiyalı bina (ticarət müəssisələri, tikinti materiallarının satış zonası, ictimai qida müəssisələri və s.), mədəniyyət evi, "Karvansaray" hotel və icma evi də yaradılır. Bundan başqa, Araz çayının sahilində və Xudafərin körpüsünün yaxınlığında parkın salınması da nəzərdə tutulub.

### İşğala qədər nə qədər abidələrimiz olub?

"Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli Fərmanına uyğun olaraq Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nümayəndələri tərəfindən tarix və mədəniyyət obyektlərinin (abidələrinin və müəssisələrinin) ilkin inventarlaşdırılması və mühafizəsi məqsədilə abidələrin və mədəniyyət müəssisələrinin monitorinqlərinə başlanılmışdır.

2021-ci ilə qədər aparılmış monitorinqlər zamanı dövlət qeydiyyatında olan 312 tarix-mədəniyyət abidəsinin monitorinqi həyata keçirilmişdir. Bundan əlavə, həmin ərazilərdə yerləşən dövlət qeydiyyatında olmayan tarixi, memarlıq, arxeoloji əlamət daşıyan 106 obyekt (yeni aşkar olunmuş abidə) aşkar edilmişdir. Həmçinin aparılan monitorinqlər zamanı 571 mədəniyyət müəssisəsi aşkar edilmişdir ki, onlardan 286-sı kitabxana, 237-si mədəniyyət evi və klub müəssisəsi, 19-u muzey, 24-ü uşaq musiqi məktəbi, 1-i kinoteatr, 2-si teatr, 2-si qalereyadır. Müəssisələrin hamısı demək olar ki, tamamilə dağıdılmış vəziyyətdədir. Beynəlxalq təşkilatların, o cümlədən BMT-nin ixtisaslaşmış müəssisələrinin son 30 ildə həyata keçirməli olduğu faktaraşdırıcı missiyalar təşkil edilmədiyinə görə inventarlaşdırma prosesi boşluğu doldurmalı olmuşdur. Hazırkı monitorinq Ermənistan Respublikasının 30 illik işğalı nəticəsində tarix-mədəniyyət abidələrinə qarşı törətdiyi qanunsuz hərəkətləri həmin ərazilərin hansı vəziyyətdə təhvil alındığını müəyyənləşdirməyə imkan vermişdir.



### Azad ərazilərin İşğal və Zəfər muzeyləri...

Məlum olduğu kimi, 2022-ci ilin 26 may tarixində Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştrakı ilə Zəngilan rayonunda İşğal və Zəfər muzeyləri kompleksinin təməlqoyma mərasimi oldu. Qeyd olunurdu ki, Zəngilan İşğal və Zəfər muzeyləri kompleksi layihəsinin əsas məqsədi müharibənin ətraf mühitə dağıdıcı təsirləri barədə məlumatlılığı artırmaqdır. Layihə hazırlanarkən dayanıqlılığın müxtəlif aspektləri həm landşaft, həm də bina dizaynı üçün nəzərə alınıb və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq hədəflənib. Zəngilan İşğal və Zəfər muzeyləri kompleksi İşğal Muzeyi, Zəfər Muzeyi və dağıntıları əks etdirən Memorial Parkdan ibarət olacaq. İşğal Muzeyi düşmənin işğalı zamanı şəhərin və bölgənin məruz qaldığı vandallığın əyani surətdə nümayiş etdirilməsi məqsədi daşıyır. Zəngilan şəhərinin müəyyən hissəsinin dağıdılmış vəziyyətdə qalması və Ermənistanın işğalçılıq siyasətinin ümumi mənzərəsini əks etdirən açıq səma altında muzey kimi nümayiş etdirilməsi nəzərdə tutulur. İşğal Muzeyində ətraf mühitə vurulan ekoloji zərərlər, xüsusilə Zəngilan şəhərində ətraf mühitə, bioloji müxtəlifliyə, meşələrə, yeraltı və yerüstü təbii ehtiyatlara ciddi ziyan vurmaq məqsədilə törədilən ekoloji terror aktları barədə məlumatlar diqqətə çatdırılacaq. Muzeyin ekspozisiyası müxtəlif audio və vizual texnologiyalardan istifadə etməklə təşkil olunacaq. Muzey binasının şüşədən hazırlanacaq fasadının üzərindəki təsvirlər və naxışlar çinar yarpağına bənzəyəcək ki, bu da Zəngilan şəhərinin təbiətlə sıx əlaqəsini tərənnüm edəcək. Zəngilan Zəfər Muzeyi Azərbaycan xalqının və şanlı Ordumuzun 44 günlük Vətən müharibəsi zamanı nümayiş etdirdiyi əzmkarlıq, rəşadət və peşəkarlığı əbədiləşdirən kompleks, həmçinin qazanılmış Qələbəni müasir tədqimat metodları ilə insanlara çatdıran məkan olacaq. Zəfər Muzeyinin binasının çinar meşəsini xatırladacaq fasadı dünyada sahəsinə görə ikinci ən böyük təbii çinar meşəsi olan Zəngilan meşələrinə həsr olunacaq. Muzeyin foyesi vizual texnologiyalar vasitəsilə Zəfərə həsr olunan məlumatları nümayiş etdirmək üçün sərgi məkanı kimi istifadə olunacaq. Həmçinin muzeydə 80 tamaşaçı yeri olan 4D kinoteatr da yaradılacaq. Bu muzeyin inşasında əsas məqsədlərdən biri də məhz gələcəkdə burada "Zangilan Earth Film Festival"ın təşkil olunması və Zəngilanda törədilmiş ekoloji terroru beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaqdır. Qeyd edək ki, Ağdamda Zəfər muzeyi və açıq hava altında İşğal muzeyi yaradılacaq.

Bildiyimiz kimi, bu ilin 28 may tarixində Prezident İlham Əliyev Laçın şəhərində İşğal və Zəfər Muzeyi Kompleksinin təməlinin qoyulması mərasimində iştirak edib. Laçın rayonunda qurulacaq kompleks İşğal və Zəfər muzeylərindən, dağıntıların nümayiş etdiriləcəyi memorial parkdan ibarət olacaq. Kompleksin loqosu əsrarəngiz gözəlliyə və təbii zənginliklərə malik Laçın rayonu ərazisində geniş yayılmış ardıc ağaclarını simvolizə edir. Ümumi sahəsi 3,5 hektar olacaq kompleks üçün seçilmiş ərazi yamacda yerləşir. Buradan Laçın şəhərinə, ətrafdakı dağlara gözəl mənzərə açılır. Kompleks əsas yol şəbəkəsinə və şəhərin mərkəzinə yaxın məsafədə yerləşir.

Muzeyin binası əzəmətli və estetik gözəlliyi ilə fərqlənən memarlıq quruluşuna malikdir. Belə ki, binanın təpənin yamacına doğru uzanması sabitlik və dayanıqlılığı ifadə edir. Rəmzi olaraq binanın quruluşu torpaqdan güc alaraq səmaya doğru yüksəlişi təcəssüm etdirir. Binanın qismən yerin alt hissəsinə keçən maili forması sayəsində muzeyin ümumi daxili sahəsi 2400 kvadratmetr təşkil edir.

Muzeyin interyeri hər tərəfdən rahat giriş imkanı yaratmaq və ətrafdakı parkla inteqrasiyanı təmin etmək üçün xüsusi formada dizayn olunub. Ərazinin relyefi ilə ahəng yaradan tikilinin dam hissəsində həm binanın daxilindən lift vasitəsilə, həm də Memorial Parkdan keçid imkanı olan iki panoramlı terras yerləşəcək.

Beş mərtəbədən ibarət olacaq muzeyin birinci mərtəbəsində bilet satış mərkəzinin yerləşdiyi geniş foyenin və inzibati otaqların yaradılması nəzərdə tutulur. İkinci mərtəbədə İşğal Muzeyi, üçüncü mərtəbədə kafe, dördüncü mərtəbədə isə Zəfər Muzeyi yaradılacaq. Sonuncu - beşinci mərtəbədə istirahət zalı və kitab mağazasından ibarət olan və yuxarı hissədən binaya girişi təmin edən foye yerləşəcək. İşğal və Zəfər muzeylərinin yerləşdiyi mərtəbələrdə muzeylərin tematikasını əks etdirən bədii instalyasiyalar nümayiş olunacaq, zallarda isə müxtəlif məzmunlu sərgilər təşkil ediləcək.

Gördüyünüz kimi, dövlətin xətti ilə azad ərazilərimizdə mədəni-maarif proqramlarının icrası həyata keçirilir və bu proqram bütün bölgəni əhatə edir.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**